ESS
ENGINEERING
STORE AND SERVICES

info@engstores.com
+994-55-594-25-95

Engineering Store and Services MMC

Fəaliyyət sahələri və xidmətlərin göstərilməsi

Engineering Store and Services MMC 2023-cü ildən etibarən Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərir.

ESS MMC-nin əsas fəaliyyət istiqamətlərinə xaricdən avadanlıqların satın alınması və satışı, təchiz edilmiş avadanlıqlar üzrə təlim və texniki xidmətlərin göstərilməsi, həmçinin sənaye qurğularının sınaqlarının həyata keçirilməsi və müvafiq sınaq protokollarının hazırlanması daxildir.

Şirkət qeyd olunan sahələr üzrə həm əsas xidmət təminatçısı, həm də dəstəkləyici xidmət tərəfdaşı qismində fəaliyyət göstərir:

1.Satınalma və Təchizat Xidmətləri:



Şək.1: Kabel sınaq laboratoriyalarının avadanlıqlarla təchiz edilməsi və quraşdırılması.

Engineering Store and Services MMC xarici ölkələrdən avadanlıqların satın alınması və satışını həyata keçirməklə yanaşı, idxal olunan avadanlıqların laboratoriya şəraitində kalibrlənməsini təmin edir. Həmçinin, idxal prosesi çərçivəsində Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq bütün gömrük rəsmiləşdirilməsi prosedurlarını həyata keçirir və avadanlıqların sonradan müştəriyə çatdırılmasını təmin edir.

info@engstores.com
+994-55-594-25-95

2. Engineering Store and Services MMC tərəfindən təhlükəsizlik, xəbərdarlıq, məcburiyyət və qadağanedici nişanların sifarişi, hazırlanması və quraşdırılması xidmətləri həyata keçirilir.

Nişanlar yağışa və günəş şüalarına qarşı davamlı materiallardan hazırlanır və həm özüyapışan stikerlər, həm də metal lövhələr şəklində istehsal olunur.

Müştərinin tələblərinə uyğun olaraq nişanların ölçüləri, dizaynı və üzərindəki mətnlər fərdi qaydada hazırlanır. Quraşdırılma işləri isə obyektin təyinatı, istismar xüsusiyyətləri və mövcud texniki şərait nəzərə alınmaqla həyata keçirilir.



Şək.2: Sənaye təhlükəsizlik və əməyin mühafizəsi nişanları

Zərurət yarandıqda, nişanların ölçüləri, dizaynı, rəng palitrası və üzərindəki mətnlər müştərinin texniki tələblərinə, qüvvədə olan normativ sənədlərə və obyektin istismar şəraitinə uyğun olaraq fərdi qaydada hazırlanır və quraşdırılır.

Bundan əlavə, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məqsədilə yol kənarında dirəklər üzərində quraşdırılan yol nişanlarının hazırlanması və quraşdırılması xidmətləri də göstərilir. Yol nişanları müvafiq milli və beynəlxalq standartların tələblərinə uyğun istehsal olunur və gecə saatlarında, eləcə də məhdud görünmə şəraitində yüksək görünürlük və aydın oxunaqlılığı təmin edən işıqəks etdirici örtüklərlə təchiz edilir.



info@engstores.com
+994-55-594-25-95

3. Engineering Store and Services MMC həmçinin dənizdə yerləşən sənaye obyektləri (offshore facilities) üçün avadanlıqların təchizatı, quraşdırılması, texniki xidməti, təmiri və sınaqlarının həyata keçirilməsini təmin edir.

Dəniz mühitinin spesifik tələbləri və istismar şəraiti nəzərə alınmaqla, şirkət beynəlxalq standartlara uyğun etibarlı və təhlükəsiz texniki həllər təqdim edir. Bütün işlər müvafiq normativ sənədlərin tələblərinə riayət edilməklə, ixtisaslı mütəxəssislər tərəfindən həyata keçirilir.

Sahədə göstərilən xidmətlər:

1. Avadanlıqların və sahənin Kontur torpaqlanmasının ölcülməsi

Şək.4: Avadanlıqların torpaqlanmasının yoxlanılması və sınağı

Engineering Store and Services MMC (ESS MMC) dəniz (Offshore) və quru (Onshore) obyektlərində avadanlıqların torpaqlanma sistemlərinin və daxili elektrik mühafizə sistemlərinin yoxlanılması, sınağı və texniki diaqnostikasını həyata keçirir. Yoxlamalar zamanı aşkar edilən texniki nasazlıqların aradan qaldırılması, elektrik mühafizə sistemlərinin bərpası və avadanlıqların iş qabiliyyətinin təmin edilməsi üzrə yerində (sahədə) texniki xidmətlər göstərir.

info@engstores.com
+994-55-594-25-95



Şək.4: 35 kV-luq eleqaz açarının kontaktlarının keçid müqavimətinin ölçülməsi (AZZA-QSC)

Engineering Store and Services MMC (ESS MMC) tərəfindən 35 kV-luq SF_6 (eleqaz) güc açarının kontaktlarının keçid müqavimətinin ölçülməsi üzrə texniki sınaq işləri həyata keçirilmişdir.

Sınaq zamanı açarın əsas kontaktlarının ommik müqaviməti xüsusi ölçü cihazı vasitəsilə yoxlanılmış, kontakt birləşmələrinin elektrik keçiriciliyi və texniki vəziyyəti qiymətləndirilmişdir.

Bu sınaqlar kontaktlarda yaranan yüksək keçid müqavimətinin, boş birləşmələrin və mümkün texniki nasazlıqların vaxtında aşkar edilməsinə, eləcə də avadanlığın etibarlı və təhlükəsiz istismarının təmin olunmasına xidmət edir.

ESS MMC – Elektrik avadanlıqlarının sınağı, diaqnostikası, texniki xidməti və təmiri.

info@engstores.com
+994-55-594-25-95



Şək.5: YG kabellərinin korroziyadan təmizlənməsi və elektrik sınaqlarının aparılması (Azza QSC)

Yüksək gərginlikli (YG) kabellərin korroziyadan təmizlənməsi və elektrik sınaqları

Engineering Store and Services MMC (ESS MMC) tərəfindən yüksək gərginlikli kabellərin texniki vəziyyətinin yoxlanılması, korroziyaya məruz qalmış hissələrin təmizlənməsi və elektrik sınaqlarının aparılması üzrə xidmətlər həyata keçirilir.

İş prosesi zamanı kabelin birləşmə və kontakt hissələri korroziyadan təmizlənir, kontakt səthlərinin texniki vəziyyəti yoxlanılır və müvafiq elektrik sınaqları aparılır.

Bu işlər kontakt birləşmələrində elektrik keçiriciliyinin yaxşılaşdırılmasına, mümkün nasazlıqların vaxtında aşkarlanmasına və kabel sistemlərinin etibarlı, təhlükəsiz istismarına xidmət edir.

info@engstores.com
+994-55-594-25-95



Şək.6: Güc transformatorlarının dielektrik dayanıqlığının yoxlanılması və digər elektrik sınaqlarının aparılması

Engineering Store and Services MMC (ESS MMC) tərəfindən güc transformatorlarının texniki vəziyyətinin qiymətləndirilməsi, izolyasiya sisteminin dielektrik dayanıqlığının yoxlanılması və müxtəlif elektrik sınaqlarının aparılması üzrə xidmətlər göstərilir.

Sınaq prosesi çərçivəsində transformatorların izolyasiya müqaviməti, dolaqların ommik müqaviməti, transformasiya əmsalı, izolyasiyanın dielektrik göstəriciləri və digər mühüm elektrik parametrləri yoxlanılır.

Aparılan sınaqlar vasitəsilə mümkün texniki nasazlıqların və izolyasiya qüsurlarının vaxtında aşkarlanması, transformatorların istismara yararlılığının qiymətləndirilməsi və etibarlı istismarının təmin edilməsi hədəflənir.

info@engstores.com
+994-55-594-25-95



Şək.7: ABB Elektrik açarının ilkin cərəyan inyeksiyası sınağı(In=1250A)

Engineering Store and Services MMC (ESS MMC) tərəfindən aşağı və orta gərginlikli elektrik açarlarının ilkin cərəyan inyeksiyası (Primary Injection) sınaqları həyata keçirilir.

Sınaq prosesi zamanı elektrik açarlarından yüksək qiymətli sınaq cərəyanı keçirilərək onların mühafizə sistemlərinin, açma mexanizmlərinin və cərəyan mühafizə parametrlərinin işləmə qabiliyyəti yoxlanılır.

Bu sınaqlar vasitəsilə uzunmüddətli (Long-time), qısamüddətli (Short-time) və ani (Instantaneous) mühafizə funksiyalarının işləməsi, açma hədləri və cavab müddətləri qiymətləndirilir.

Aparılan yoxlamalar elektrik açarlarının texniki vəziyyətinin müəyyən edilməsinə, mühafizə sistemlərinin düzgün işləməsinin təsdiqlənməsinə və elektrik qurğularının təhlükəsiz istismarına xidmət edir.

info@engstores.com
+994-55-594-25-95

Yüksək gərginlikli avadanlıqların texniki xidməti və təmiri



Şək.8: Güc transformatorun və kabellərin təftişu və sınağı



Engineering Store and Services MMC xarici mənbələrdən yüksək gərginlikli (YG) kabellərin təchizatını həyata keçirir, həmçinin həmin kabellərin izolyasiya, bütövlük və dielektrik dayanıqlıq sınaqlarını aparır. Outsourcing xidmətləri çərçivəsində şirkət avadanlıqların və elektrik şəbəkələrinin diaqnostikasını, gərginlik yoxlamalarını, eləcə də quraşdırma işlərini yerinə yetirir.

Engineering Store and Services MMC enerji sektorunda peşəkar fəaliyyət göstərən şirkət olaraq, yüksək gərginlikli kabellərin və transformator dolaqlarının dəyişən (AC) və sabit (DC) cərəyanla yüksək gərginlik sınaqlarını həyata keçirir. Şirkət müasir və sertifikatlaşdırılmış sınaq avadanlıqlarından istifadə etməklə, eləcə də təcrübəli mühəndis heyətinin dəstəyi ilə xidmətlərin yüksək keyfiyyətlə və beynəlxalq standartların tələblərinə uyğun yerinə yetirilməsini təmin edir.

info@engstores.com
+994-55-594-25-95

Termal kamera vasitəsilə avadanlıqlarda yaranan yüksək temperatur sahələrinin (Hot Spots) aşkar edilməsi və termoqrafik diaqnostika.




Şək.9: Termoqrafik müayinə vasitəsilə avadanlıqlarda yüksək temperatur sahələrinin (isti nöqtələrin) müəyyən edilməsi.

Engineering Store and Services MMC elektron avadanlıqların təmiri və quraşdırılması xidmətlərini həyata keçirir. Təmir edilmiş avadanlıqların texniki diaqnostikası və aparılmış təmir işləri barədə müvafiq texniki hesabat təqdim olunur.

Şəkildə göstərilən iki elektron plata generatorun AVR (Automatic Voltage Regulator – Avtomatik Gərginlik Tənzimləyicisi) sisteminin avtomatik idarəetməsini təmin edən elektron idarəetmə sxemləridir.

Qısaqapanma nəticəsində platalar işlək vəziyyətini itirmişdir. **Engineering Store and Services MMC** tərəfindən elektron platların təmiri və bərpası həyata keçirilmiş, daha sonra onlar yerində quraşdırılaraq generatorun idarəetmə sisteminə qoşulmuşdur



Şək.10: Təmirdən öncə



Şək.11: Təmirdən sonra

info@engstores.com
+994-55-594-25-95



Şək.12: Təchizat olunan avadanlıqlar

Avadanlıqların fasiləsiz və etibarlı fəaliyyətini təmin etmək, eləcə də potensial qəza və nasazlıqların əvvəlcədən qarşısını almaq üçün **Engineering Store and Services MMC** şirkətinin peşəkar xidmətlərindən yararlana bilərsiniz.

Engineering Store and Services MMC sənaye və tikinti sektorlarında fəaliyyət göstərən müştərilər üçün kompleks texnoloji həllər, avadanlıqların təchizatı və texniki xidmətlər təqdim edən texnologiya şirkətidir.

Şirkətimiz sənaye dəyər zəncirinin bütün mərhələlərini əhatə edən geniş çeşidli avadanlıq və xidmətlər təklif edir. Kalibrləmə və sınaq laboratoriyaları üçün avadanlıqların satışı və icarəsi, eləcə də onların texniki dəstəyi və xidməti istiqamətində kompleks həllər təqdim edirik.

Engineering Store and Services MMC xarici şirkətlərlə də əməkdaşlıq edir. Şirkət Avropa, Rusiya və Çində yerli tərəfdaşlarla işgüzar əlaqələr qurur və həmin ölkələrdə yerli mütəxəssislərdən ibarət komandalar vasitəsilə müxtəlif layihələri həyata keçirir.